Əl işdən soyumaz, ürək arzudan...

# QƏBƏLƏ

ictimai-siyasi qəzet

№ 51-52 (7572-7573) ✧ 1933-cü ildən nəşr olunur ✧ Cümə axşamı 21 noyabr 2019-cu il. news@qebele-ih.gov.az

# Güclü xalqla güclü liderin vəhdəti

Azərbaycan xalqının taleyində mühüm əhəmiyyət kəsb edən elə anlar var ki, həmin tarixlərdə onun gələcək həyatını müəyyən edən önəmli başlanğıcların əsası qoyulub.

2003-cü il oktyabrın 15-də Azərbaycan xalqı İlham Əliyevi Prezident seçməklə birinci növbədə Heydər Əliyevin siyasi kursuna səs verdi. Bununla da xalqımız sülhün, əmin-amanlığın, tərəqqinin, inkişafın, quruculuğun və sabitliyin tərəfində olduğunu nümayiş etdirdi, ölkədə bu siyasətə alternativin olmadığını bir daha təsdiqlədi.

2008-ci ilin prezident seçkilərində xalqın yenidən İlham Əliyevə etimad göstərməsi onun həyata keçirdiyi siyasətin uğurları ilə bağlı idi. İkinci müddətə Azərbaycan Respublikasının Prezidenti seçilən İlham Əliyev qarşıdakı illərdə xalqımızda siyasi və sosial-iqtisadi uğurlar seriyasının davamlı xarakter alacağına əminlik yaratdı. İlham Əliyevin xalqdan aldığı dəstəyin təməlində isə onun Heydər Əliyev siyasətinə sadiqliyi dayandı.

2013-cü ildə keçirilən prezident seçkilərində xalq öz seçimini etmək üçün kütləvi şəkildə yenidən məntəqələrə axın etdi.

Ötən dövr ərzində Azərbaycanda bütün istiqamətlərdə böyük inkişafın müşahidə edilməsi, ölkəmizin bölgədə və dünyada mövqelərini gücləndirməsi ilə müşahidə olundu. Müstəqilliyimizin və ideoloji dayaqlarımızın daha da möhkəmləndirilməsinin, vətəndaş həmrəyliyinin bərqərar olmasının təməlində isə Azərbaycan dövlətinin milli maraqlarının qorunması dayandı. Prezident İlham Əliyevin yürütdüyü siyasət Azərbaycanın müttəfiqlərinin və dostlarının sayını artırdı. Azərbaycan beynəlxalq müstəvidə layiqli yerini möhkəmləndirdi. Regional təşəbbüslər Azərbaycanın möhkəmlənməsinə, həm də bölgədəki əməkdaşlığın inkişafına xidmət etdi. Milli mənafelərlə bağlı problemlərin həllinə həssas və fəal yanaşma uzaq və yaxın xaricin də diqqətindən yayınmadı. Azərbaycan Prezidentinin yürütdüyü uğurlu xarici siyasət nəticəsində ölkəmiz BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçildi, beynəlxalq təşkilatlar Ermənistanı işğalçı dövlət kimi tanıdı.



## Azərbaycanın inkişafında başlanmış yeni mərhələ uğurla davam edir

Azərbaycanda ordu quruculuğu istiqamətində həyata keçirilən tədbirlər, silahlı qüvvələrin hərbi hazırlıq səviyyəsinin artırılması ilə bağlı görülən işlər xalqımızı ordumuzun etibarına və gücünə inandırdı. Azərbaycanda güclü müdafiə sənayesi quruldu.

Bu dövrdə Azərbaycanın iqtisadi uğurları daha da böyüdü, iqtisadi nailiyyətləri ilə hər zaman diqqət mərkəzində olan ölkəmizin valyuta ehtiyatları, o cümlədən Azərbaycana qoyulan sərmayələrin həcmi artdı, güclü sahibkarlıq sinfi yarandı. Regionların sosial-iqtisadi inkişafına dair həyata keçirilən dövlət proqramları sayəsində bölgələrdə inkişaf prosesləri sürətləndi, kənd təsərrüfatının müxtəlif sahələri ilə bağlı konkret proqramlar icra olundu. İşsizliyin və yoxsulluğun səviyyəsi aşağı düşdü, Azərbaycanda 2 milyondan çox yeni iş yeri yaradıldı.

Ölkədə qeyri-neft sektorunun inkişafı neft siyasətinin məntiqi davamı oldu. Nəhəng infrastruktur layihələri–idman kompleksləri, təhsil-səhiyyə ocaqları, turizm mərkəzləri inşa edildi, maddi-texniki bazaları gücləndirildi. Beynəlxalq dəniz və hava limanlarının istifadəyə verilməsi, dəmiryolu və avtomobil yolları nəqliyyatı sisteminin yenidən qurulması ölkəmizin dünyaya çıxışını təmin etməklə yanaşı Azərbaycanı tranzit yüklərin Asiyadan Avropaya və əksinə daşınmasında əsas məkana çevirdi ki, bu da ölkəmizə külli miqdarda valyuta gəlməsinə imkan yaratdı. Bütün bunların təməlində isə uğurlu enerji siyasəti dayandı.

Prezident İlham Əliyevin yürütdüyü siyasət müasir ölkəmizin güclənməsinə, milli-mənəvi dəyərlərimizin ən yüksək səviyyədə qorunmasına xidmət etdi. Dünyada tolerantlıq məkanı kimi tanınan Azərbaycan mədəniyyətlərarası və sivilizasiyalararası dialoq məkanı kimi tanındı.

Dövlət başçısının insanların sosial rifahının yüksəldilməsi istiqamətində atdığı ardıcıl və effektiv addımlar bu gün güclü xalq, güclü dövlət, güclü lider vəhdətini ölkəmizin qüdrətinə çevirib.

**“Qəbələ”**

# Ləki-Qəbələ dəmir yolu xəttinin tikintisinə 45 milyon manat ayrılıb

Prezident İlham Əliyev noyabrın 7-də “Ləki-Qəbələ dəmir yolu xəttinin tikintisi ilə bağlı əlavə tədbirlər haqqında” Sərəncam imzalayıb.

AZƏRTAC xəbər verir ki, Sərəncama əsasən, Ləki-Qəbələ dəmir yolu xəttinin tikinti işlərinin davam etdirilməsi məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 15 yanvar tarixli 890 nömrəli Sərəncamı ilə təsdiq edilmiş ”Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsində digər layihələr üzrə dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü”nün 1.2.6-cı yarımbəndində göstərilmiş məbləğin 45 milyon manatı ”Azərbaycan Dəmir Yolları” Qapalı Səhmdar Cəmiyyətinə ayrılıb.